# Şuşa istiqamətində son döyüş

**Məndən olsa, Vətən müharibəmizin qəhrəmanlarının adını "Sevdalılar" qoyardım. Döyüşçülər sevdalıydı Şuşaya, vurğunuydu silaha, təşnə idi Vətənə. Sevdalısına qovuşarcasına gedirdilər ölümə, Xəqani Cəmilli kimi.**

O, 22 fevral 1995-ci ildə Yevlax rayonunun Varvara kəndində anadan olmuşdu. Ailədə 3 qardaş idilər - Xəqani, Məmmədyar və Xətai. Atası Mənsur Cəmilli deyir ki, balalarımın gözü idi Xəqani. Bacarıqlı, qeyrətli uşaq idi, böyüyə sayğılı, kiçiyə mərhəmətli, çox nəzakətli və diqqətcil idi.

Gədəbəy rayonundakı "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət zamanı ön cəbhədə düşmən postu ilə üzbəüz olub təcrübə qazanmışdı. Döyüşdə və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nailiyyətlərinə görə Müdafiə Nazirliyi tərəfindən fəxri fərmana layiq görülmüşdü. Hərbi xidmətdə olarkən çəkdirdiyi şəklin altında "Orduda xidmət etmək ən şərəfli vəzifədir" sözlərini yazmışdı.

Hərbi sahəyə marağı və sevgisi böyük olduğuna görə, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən moto-atıcı taqım komandirinin müavini kursunu bitirir. 2016-cı il dekabrın 16-dan Ağcabədi rayonunda yerləşən hərbi hissədə gizir kimi xidmətə başlayır və bir neçə aydan sonra Füzuli rayonunda yerləşən hərbi hissədə xidmətini davam etdirir.

Müharibə başlananda Xəqani hünər üçün meydan açıldığını görərək sevinib. Döyüşlərin qızğın çağlarında imkan tapan kimi valideynləri ilə danışar, vəziyyətin əla olduğunu, tezliklə qələbə çalacaqlarını söyləyərmiş. Xəqani taqım komandirinin müavini idi, oktyabrın 1-də Füzulinin azadlığı uğrunda döyüşlər zamanı 25 nəfər əsgərlə əmr aldığı istiqamətdə döyüşür, sanki bir qartal kimi qıy vururdu.



Birdən qarşı tərəfin minamyot atəşinə məruz qalır, neçə-neçə döyüşçü ilə bərabər Xəqani də qəhrəmanlıqla şəhid olur. Xəbəri eşidən atası güclü stress keçirir və keçici olaraq danışıq qabiliyyətini itirir, elə o vəziyyətdə də Füzuliyə, düz oğlunun döyüşdüyü bölgəyə yollanır. Xəqaninin sağ qalan cəbhə yoldaşları onun qisasını necə aldıqlarını, Füzulini necə xilas etdiklərini söyləyib, ataya təskinlik verirlər. Oktyabrın 4-də şəhidin nəşi doğma kəndinə gətirilir, ailəsinin istəyi ilə cəsur döyüşçü Xəqani doğma Varvara kəndinin qəbristanlığında canından çox sevdiyi torpağa tapşırılır.

O, qısa ömrünü yaşadığı kənddə hər gün, hər saat xatırlanır. Çünki burada qəhrəman Vətən oğlunun adına küçə verilib, Füzuli rayonunda xidmət etdiyi hərbi hissədə isə adına bulaq çəkilib.

Atası deyir ki, Şuşa Xəqani həlak olan vaxt hələ azad edilməmişdi, amma onun son döyüşü Füzuli-Xocavənd-Suşa istiqamətində getdiyi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Xəqani "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə bərabər, "Şuşanın azad olunmasına görə" medalı ilə də təltif olunub.

Xalq qəzeti .- 2025.- 23 fevral (№ 41).- S.9.